***«Atəşgah» Sığorta Şirkəti ASC***

# AVTOMOBILLƏ YÜK DAŞIYICILARININ, EKSPEDITORLARIN MÜLKI MƏSULIYYƏTININ SIĞORTASI

# QAYDALARI

**Maddə 1. Əsas anlayışlar**

Bu Qaydalarda və bu Qaydalar əsasında bağlanmış sığorta müqavilələrində aşağıdakı əsas anlayışlardan istifadə olunur:

**Sığortaçı -** sığorta qanunvericiliyi əsasında sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, Sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan Sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs;

**Sığortalı**– sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan və faydalanan şəxsin olmaması halında Sığortaçıdan sığorta ödənişini almağa səlahiyyətli olan avtomobil daşıyıcısı və ya ekspeditor qismində Sığorta müqaviləsinin tərəfi;

**Sığorta obyekti** - Sığortalının Sığorta olunan əmlakla bağlı qanunazidd olmayan əmlak mənafeləri;

**Sığorta hadisəsi** - sığorta müqaviləsinə görə sığorta ödənişinin Sığortalıya, yaxud faydalanan şəxsə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;

**Faydalanan şəxs** - sığorta müqaviləsinə əsasən sığorta ödənişini almalı olan şəxs;

**Sığortanın müddəti** – sığorta risklərinin sığortalandığı müddət;
**Sığorta məbləği** – Sığorta olunan risklər üzrə Sığortaçının öhdəliyinin sığorta müqaviləsi ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi;

**Sığorta tarifi** - sığorta haqqının sığorta məbləğindən faizlərlə ifadə olunmuş tarifi;

**Sığorta haqqı** – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində Sığorta müqaviləsində nəzərdə tutulan qaydada Sığortalının Sığortaçıya ödəməli olduğu pul məbləği;

**Sığorta ödənişi** – sığorta hadisəsi baş verdikdə Sığortalının əmlakına və ya əmlak mənafelərinə dəymiş zərərin yerini doldurmaq məqsədilə Sığorta müqaviləsinə uyğun olaraq Sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

**Azadolma məbləği** - sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və Sığortalının üzərində qalan hissəsi;

**Mühüm şərtlər** – Sığorta müqaviləsində, yaxud Sığorta şəhadətnaməsində göstərilmiş və Sığortalı tərəfindən yerinə yetirilməməsi Sığortaçının sığorta ödənişi verməkdən imtina etməsi və ya Sığorta müqaviləsini, yaxud Sığorta şəhadətnaməsini ləğv etməsi üçün əsas olan şərtlər;

**Sığortanın ərazisi** - sığorta təminatının qüvvədə olduğu ərazi;
**Assistans şirkəti** - sığorta sahəsində yardımçı fəaliyyət göstərən hüquqi şəxs;
**Daşıyıcı –** yükün daşınması müqaviləsi əsasında yükgöndərən tərəfindən ona həvalə olunmuş yükü təyinat məntəqəsinə daşımaq və onu səlahiyyətli şəxsə təhvil vermək öhdəliyini öz üzərinə götürmüş şəxs.

**Nəqliyyat-ekspeditor xidməti** – istənilən nəqliyyat növləri ilə yükdaşımaların təşkili və poçt rabitəsi sahəsində daşımalar istisna olmaqla, yükdaşımalar üçün zəruri olan daşıma və digər sənədlərin rəsmiləşdirilməsi üzrə xidmətlərin göstərilməsi qaydası.

**Nəqliyyat-ekspeditor müqaviləsi** – bir tərəfin (ekspeditorun) ödəniş aparmaq və digər tərəfin (müştərinin) xərcləri hesabına yüklərin daşınması ilə bağlı müqavilə ilə müəyyən olunmuş xidmətlərin yerinə yetirilməsinin təşkilini öz üzərinə götürməsi üçün əsas olan mülki-hüquqi müqavilə.

**Ekspeditor** ▼ –nəqliyyat-ekspeditor müqaviləsi ilə müəyyən olunmuş nəqliyyat-ekspeditor xidmətlərini yerinə yetirən və (yaxud) təşkil edən şəxs;

**Kontragent** – müqavilə üzrə öz üzərinə öhdəlik götürmüş fiziki, yaxud hüquqi şəxs, müqavilədə biri-biri ilə qarşılıqlı münasibətdə tərəflərdən hər biri.

**Yükgöndərən (göndərən)** – daşıma müqaviləsi əsasında öz adından, yaxud da yük sahibinin adından çıxış edən və daşıma sənədində göstərilən fiziki və ya hüquqi şəxs.

**Səlahiyyətli şəxs (yükalan)** – yükü qəbul etməyə səlahiyyəti olan, yüklərin daşınmasından, yaxud nəqliyyat-ekspeditor xidmətlərinin göstərilməsindən irəli gələn öhdəliklər əsasında Sığortalıya qarşı tələb irəli sürmək hüququna malik fiziki və ya hüquqi şəxs.

**Yük** – hazırkı qaydalara görə, "yük" anlayışı müəyyən edilmiş qaydada daşıma və ya göndərilmə üçün qəbul olunmuş bütün mal və ya əmlakın ümumi adı mənasını verir. "Yük" anlayışına yüklərin daşınması üçün nəzərdə tutulan konteyner və nəqliyyat vasitələri (qoşqu, yarımqoşqu) aid edilmir.

**Təhlükəli yük** – daşıma zamanı xas olduqları xüsusiyyətlər səbəbindən həyat üçün və insanların sağlamlığına təhlükə yarada, ətraf mühitə zərər yetirə, maddi qiymətliləri korlaya və ya məhv edə biləcək maddələr, onlardan hazırlanmış məmulatlar, istehsalat və ya digər təsərrüfat fəaliyyəti tullantıları.

**Marşrut** – nəqliyyat vasitəsinin yola düşmə və təyinat məntəqələri arasında ən yaxın və (yaxud) ən məqsədəuyğun (həyata keçirilən fəaliyyətin – daşımanın/göndərilmənin) hərəkət xətti.

**Avtomobil** – xüsusi gövdə (furqon, yük platforması, platforma, sistern və s.) ilə təchiz olunmuş yükün/konteynerin daşınması üçün nəzərdə tutulan nəqliyyat vasitəsi.

**Avtodartıcı** – qoşulan sistemləri yedəkləmək üçün uyğunlaşdırılmış ballast üçün nəzərdə tutulan gövdəsiz və ya xırda gövdəli avtomobil – nəqliyyat vasitəsi. Onların aşağıdakı növləri var:

a) yəhərli dartıcı (yarımqoşqular üçün)
b) yedək maşını (qoşqular üçün).

**Qoşqu** – avtomobillə yedəyə alınması nəzərdə tutulan nəqliyyat vasitəsi.

**Yarımqoşqu** – bir hissəsinin avtomobilə, axırıncının isə yarımqoşqunun və onun çəkisinin cüzi bir hissəsini öz üzərinə götürə biləcəyi bir şəkildə avtomobilə qoşulma üçün nəzərdə tutulan qoşqu – nəqliyyat vasitəsi.

**Avtoqatar** – avtomobildən (yük, yaxud dartıcı), dartı-qoşqu qurğusu (qurğuları) ilə birləşən yarımqoşqudan və (yaxud) qoşqu(lar)dan ibarət avtomobil qatarı ("qoşulma"). Onların aşağıdakı növləri mövcuddur:

a) yük avtomobili-qoşqu tərkibli avtoqatar;
b) dartıcı-qoşqu tərkibli avtoqatar;
c) dartıcı-yarımqoşqu-qoşqu tərkibli avtoqatar.

**Bir nəqliyyat vasitəsi üzrə limit** – hazırkı Qaydalara əsasən, sığorta müqaviləsi ilə digər hallar nəzərdə tutulmazsa, "bir nəqliyyat vasitəsi üzrə limit" anlayışı Sığortaçının bir avtomobil, yaxud bir avtoqatar üzrə sığorta ödənişinin limiti (son həddi) mənasını verir.

**Konteyner** – malların daşınması zamanı bir neçə dəfə istifadə olunmaq üçün nəzərdə tutulan, xüsusi olaraq, yüklərin aralıq yüklənməsi olmadan nəqliyyatın müxtəlif növləri ilə daşınma üçün nəzərdə tutulmuş, gövdəyə yerləşdirilmək üçün tam və ya qismən qapalı qab rolunu oynayan daşıma avadanlığı (çıxma furqon, sistern və ya digər buna bənzər konstruksiya). "Konteyner" termini konteynerin göstərilən növə uyğun qurğularını və avadanlığını özündə cəmləşdirir, bir şərtlə ki, bu cür qurğular və avadanlıq konteynerlə birgə daşınmış olsun. "Konteyner" termini "nəqliyyat vasitəsi" anlayışına daxil edilmir və nəqliyyat vasitələri üçün nəzərdə tutulan qurğuları və ya ehtiyat hissələrini, habelə qablaşdırmanı əhatə etmir.

**Ərizə** - Sığorta olunmaq məqsədilə Sığortalı tərəfindən doldurulan ərizə forması; ərizə formasında sığorta predmetinə dair Sığortalı tərəfindən göstərilən bütün məlumat və halların həqiqətəuyğun və dolğun olması bu Sığorta müqaviləsinin Mühüm şərtidir.

**Yükün/konteynerin/qoşqunun itməsi** – hazırkı Qaydalara əsasən, daşıma/göndərilmə müqaviləsi əsasında həvalə olunmuş yükün/konteynerin/qoşqunun oğurlanması mənasını verir.

**Yükün/konteynerin/qoşqunun korlanması** – fiziki bütövlüyün pozulması, mənfi dəyişikliklər, keyfiyyətin pisləşməsi.

**Yükün/konteynerin/qoşqunun məhv olması** – zədələnmiş yükün/konteynerin/qoşqunun bərpası qeyri-mümkün olduğu, yaxud da bərpa xərcləri sığorta hadisəsi baş verdiyi tarixdə həqiqi dəyərə bərabər olduğu və ya onu ötdüyü hallarda baş verən korlanma.

**Maddə 2. Ümumi müddəalar**

2.1. Hazırkı Qaydalar beynəlxalq konvensiyalar da daxil olmaqla, Azərbaycan Respublikası qanunvericiliyinə, beynəlxalq nəqliyyat qanunvericiliyinə müvafiq olaraq işlənib hazırlanmış və tətbiq olunurlar. Bu Qaydalar daşıyıcıların və ekspeditorların yüklərin daxili və beynəlxalq avtomobil daşımaları və göndərilməsi sahəsində öz fəaliyyətlərini həyata keçirməsi zamanı onların mülki məsuliyyətinin sığortası müqaviləsinin şərtlərini və bağlanması qaydasını müəyyən edir.
Sığorta müqaviləsinin bağlanması və icrası zamanı tərəflər aşağıdakıları rəhbər tuturlar:

a) Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyini;
b) məcburi qaydada və ya daşıma müqaviləsinin şərtlərindən irəli gələrək, beynəlxalq nəqliyyat konvensiyalarının müddəalarını;
c) müvafiq ölkənin nəqliyyat qanunvericiliyinin müddəalarını;
ç) sığorta müqaviləsinin müddəalarını.

2.2. Hazırkı Qaydalara müvafiq olaraq, sığorta müqaviləsinə əsasən həm Sığortalının məsuliyyət riski, həm də belə bir məsuliyyətin həvalə oluna biləcəyi digər şəxsin məsuliyyət riski sığortalana bilər. Zərər yetirməyə görə məsuliyyət riski sığortalanmış şəxsin adı sığorta müqaviləsində göstərilməlidir və əgər göstərilməzsə, bu zaman Sığortalının özünün məsuliyyət riski sığortalanmış hesab olunur. Sığorta müqaviləsi ilə Sığorta olunanın məsuliyyəti ilə bağlı sığorta müdafiəsi nəzərdə tutulduğu hallarda hazırkı Qaydaların bütün müddəaları və sığorta müqaviləsinin şərtləri Sığortalının, yaxud da müvafiq olaraq Sığorta olunanın fəaliyyətinə tətbiq olunan hissəsi ilə bağlı həm Sığortalı, həm də Sığorta olunan üçün məcburi hesab olunur.

2.3. Hazırkı Qaydalara əsasən, sığorta müqaviləsi ilə digər şərtlər nəzərdə tutulmadığı təqdirdə, yükün öz və (yaxud) icarəyə götürülmüş nəqliyyat vasitələri ilə daşınması və yola salınması ilə əlaqədar olaraq, Sığortalının məsuliyyət riski "Barələrində müvafiq sığortanın həyata keçirildiyi nəqliyyat vasitələrinin siyahısı"nda göstərilən həmin nəqliyyat vasitələrindən istifadə zamanı sığortalanmış hesab olunur.

2.3.1. Öz nəqliyyat vasitələrindən istifadə ilə bağlı xüsusi qeyd: yükün daşınması/göndərilməsi sığorta ilə o şərtlə əhatə olunur ki, avtoqataran tərkibi "Barələrində müvafiq sığortanın həyata keçirildiyi nəqliyyat vasitələrinin siyahısı"nda göstərilən nəqliyyat vasitələrindən təşkil edilmiş olsun.
2.3.2. İcarəyə götürülmüş nəqliyyat vasitələrindən istifadə ilə bağlı xüsusi qeyd: icarə müqaviləsi əsasında Sığortalı tərəfindən istifadə olunan nəqliyyat vasitələri ilə daşıma Sığortalının daşıyıcı/ekspeditor qismində göstərildiyi yol vərəqəsi və mal-nəqliyyat qaiməsi (o cümlədən, qüvvədə olan qanunvericiliyə müvafiq olaraq, digər nəqliyyat sənədləri) rəsmiləşdirildiyi təqdirdə sığorta ilə əhatə olunur.

**Maddə 3. Sığortanın predmeti**
Bu Qaydalara əsasən sığortanın predmeti Sığorta obyekti Sığortalının ekspeditor, yaxud yüklərin avtomobil nəqliyyat növü ilə daşıyıcısı qismində öz fəaliyyətini həyata keçirdiyi zaman üçüncü tərəflərə vurduğu zərəri qanunvericiliklə müəyyən olunmuş qaydada ödəmək vəzifəsi ilə bağlı onun qanunvericiliyə zidd olmayan əmlak mənafeləridir.

**Maddə 4. Sığorta sinfi**
Bu Qaydalara əsasən təqdim olunan sığorta məhsulu məsuliyyətin sığortası sinfinə aiddir.

**Maddə 5. Sığorta ərazisi**
Hazırkı Qaydalara müvafiq olaraq, sığorta ərazisi sığorta müqaviləsi ilə müəyyən olunur və "sığorta ərazisi" anlayışı aşağıdakı mənanı verir: daşıma marşrutu, yaxud da aşağıda sadalananlardan biri: hüdudlarında yükün daşınmasının/göndərilməsinin həyata keçirildiyi yaşayış məntəqəsi, region və ölkə.

**Maddə 6. Sığorta riski və sığorta hadisəsi**

6.1. Sığorta riskləri sığorta müqaviləsində göstərilməlidir.
6.2. Sığortanın həyata keçirildiyi, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş vermiş, nəticədə Sığortalının mülki məsuliyyətinin yarandığı və Sığortaçının isə sığorta ödənişini vermək öhdəliyinin yarandığı hal zamanı baş verən hadisə sığorta hadisəsi kimi qəbul edilir.
6.3. Hadisə sığorta hadisəsi kimi tanındığı zaman, Sığortaçı həm özü tərəfindən könüllü qaydada təsdiq olunan, Sığortalıya qarşı mülki qanunvericilik normalarına müvafiq şəkildə zərərin ödənilməsi ilə bağlı irəli sürülən iddia, həm də məhkəmə orqanlarının qanuni qüvvəyə minmiş qərarı əsasında sığorta ödənişini həyata keçirə bilər.

**Maddə 7. SIĞORTA TƏMİNATININ HƏCMİ**

7.1. Sığortalının mülki məsuliyyətinin həcmi qüvvədə olan beynəlxalq və milli nəqliyyat qanunvericiliyinin şərtlərinə müvafiq qaydada müəyyən olunur.
Əgər tətbiq olunan qanunvericilikdə Sığortalının məsuliyyətinin yükün dəyəri elan olunduğu zaman, ya da daşıma/göndərilmə müqaviləsi üzrə tərəflərin razılığı əsasında arta biləcəyini nəzərdə tutan müddəa olarsa, onda məsuliyyətin bu cür artımı onun sığorta müqaviləsində birbaşa göstərildiyi şərtlər daxilində Sığorta olunan hesab olunur. Sığortaçı bu zaman əlavə sığorta haqqının ödənişini tələb etmək hüququna malikdir. Sığortalının məsuliyyətinin artması qanunvericiliyin tələblərinə uyğun olaraq, nəqliyyat sənədlərində rəsmiləşdirilməlidir.
Hazırkı qaydalara müvafiq olaraq, aşağıdakı risklər bəyan olunur və sığorta ilə əhatə olunurlar:

7.2. **"daşımaya/göndərilməyə qəbul edilmiş yükün itməsinə, məhv olmasına, yaxud korlanmasına görə səlahiyyətli şəxs qarşısında mülki məsuliyyət".**
Hazırkı bəndə əsasən, Sığortalının səlahiyyətli şəxs qarşısında daşıma/göndərilmə müqaviləsinə

müvafiq olaraq, yük qəbul edildiyi andan etibarən və o, yükalana, yaxud da digər daşıyıcıya/ekspeditora təhvil verilən anadək onun itməsinə, məhv olmasına, yaxud korlanmasına görə zərərin kompensasiya olunması üzrə məsuliyyət riski sığortalana bilər.
7.2.1. "daşımaya/göndərilməyə qəbul olunmuş yükün itməsinə, məhv olmasına, yaxud korlanmasına görə səlahiyyətli şəxs qarşısında mülki məsuliyyət riskinə dair xüsusi şərtlər":
a) Barəsində sığorta müqaviləsi bağlanılmış yüklərin daşınması üzrə fəaliyyətə uyğun olaraq, yükün Sığortalı, yaxud da onun qanuni nümayəndəsi tərəfindən müşayət olunması şərtilə, daşınan yükün saxlanılması və boşaltma, yaxud yükləmə məntəqəsinə çatdırılması məqsədilə daşınan yükün (onun bir hissəsinin) müvafiq yükün daşınması üçün yararlı olan digər nəqliyyat vasitəsinə məcburən və zərurətdən irəli gələrək yenidən yüklənilməsi halları da daxil olmaqla, daşımaya qəbul olunmuş yükə dəyən zərərə, yaxud onun itməsinə görə mülki məsuliyyət sığorta ilə əhatə olunur.
b) hazırkı risk üzrə sığorta təminatının şərti aşağıdakı tələbdən ibarətdir:
- **qoşqu (yarımqoşqu) liman zonası, yaxud gəmidə olan hallar istisna edilməklə, daima avtomobilə (dartıcıya) qoşulmuş vəziyyətdə olmalıdır**.
7.2.2. Əlavə olaraq, bu, sığorta müqaviləsində birbaşa göstərildiyi hallarda aşağıdakı risklər sığortalana bilər:
7.2.2.1. Sığortalının səlahiyyətli şəxs qarşısında səbəbi yükün səlahiyyətsiz şəxsə verilməsi ilə əlaqədar olan itməsinə görə zərərin ödənilməsi üzrə mülki məsuliyyətinin yaranması riski. Sığortaçının hazırkı yarımbənddə göstərilən riskə görə məsuliyyəti aşağıdakı tələblərə əməl olunduğu təqdirdə yaranır:
a) Sığortalı yükün müvəqqəti saxlama, gömrük anbarına yerləşdirilməsi zamanı malın saxlanmaya qəbul edilməsini təsdiq edən müvafiq sənədi (anbarın möhürü ilə təsdiq olunmaqla anbar əməkdaşının imzası ilə), habelə milli gömrük qanunvericiliyinin tələblərinə uyğun olaraq, gömrük orqanları tərəfindən rəsmiləşdirilmiş sənədləri qəbul etmiş olarsa;
b) yük alıcıya təhvil verilən zaman Sığortalı yükalan tərəfindən imzalanmış və yükalanın möhürü ilə təsdiqlənmiş mal-nəqliyyat qaiməsinin bir nüsxəsini əldə etməlidir. Möhürün məzmunu yükalanın mal-nəqliyyat sənədinin (mal-nəqliyyat qaiməsi) müvafiq qrafasında göstərilən məlumatlara uyğun olmalıdır;
c) yükün alıcıya təhvil verilməsi yükalan tərəfindən yükün qəbul edilməsinə dair, o cümlədən, tarixi, təşkilat rəhbərinin imzasını, təşkilatın möhürünü və nümayəndənin pasport məlumatlarını əks etdirən qanuni vəkalətnamənin əsli, yaxud da yükalanın müvafiq yükü almasına dair qanuni səlahiyyətlərini əks etdirən digər sənəd təqdim olunduğu zaman həyata keçirilir. Vəkalətnamənin üzərindəki möhür alıcının mal-nəqliyyat sənədinə vurulan möhürlə zahiri görünüş və məzmun etibarilə üst-üstə düşməlidir.
ç) yuxarıda göstərilən tələblərin yerinə yetirilməsinin sübut yükü Sığortalının üzərinə düşür.
7.2.2.2. Sığortalının itmiş və ya korlanmış yükə görə yük sahibi tərəfindən ödənilmiş gömrük ödəmələrinin kompensasiyası üzrə məsuliyyət riski;
7.2.2.3. BYD kitabçası istisna olunmaqla, Sığortalının malla bərabər göndərilən sənədlərin itməsinə görə məsuliyyət riski.

**7.3. "səlahiyyətli şəxs qarşısında maliyyə itkilərinə görə mülki məsuliyyət** ".
Hazırkı bəndə əsasən, Sığortalının səlahiyyətli şəxs qarşısında həmin şəxsin aşağıdakı hallarla bağlı çəkmiş olduğu, yaxud da çəkməli olacağı xərclərin ödənilməsinə görə məsuliyyət riski sığortalana bilər (daşıma/göndərmə müqaviləsinə müvafiq olaraq, yükün Sığortalı tərəfindən qəbul edildiyi andan etibarən və o, yükalana, yaxud da digər daşıyıcıya/ekspeditora təhvil verilənədək):
a) yükün çatdırılması vaxtının ötürülməsi ilə. Bu halda Sığortalının mülki məsuliyyətinin yaranması şərti yüklərin 1956-cı il YYDK Konvensiyası, digər beynəlxalq konvensiyalar, nəqliyyat nizamnamələri, yaxud müəyyən olunmuş qaydada dərc olunmuş digər qayda və ya qanunvericilik aktları ilə müəyyən olunmuş çatdırılma müddətlərinin pozulmasıdır.
b) nəqliyyat qaiməsinin, BYD kitabçası istisna olmaqla, malla bərabər göndərilən digər yük sənədlərinin doldurulması zamanı Sığortalı tərəfindən buraxılan səhv (xəta) ilə.

7.3.1. “Sığortalının təqsiri üzündən malın qeyri-düzgün göndərilməsi nəticəsində səlahiyyətli şəxs qarşısında maliyyə itkilərinə görə məsuliyyət” riskinə görə xüsusi şərt: əgər sığorta müqaviləsi ilə digər hallar nəzərdə tutulmayıbsa, sığorta hadisəsi peşə səhvinin (xətasının) sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində yol verildiyi təqdirdə hadisə sığorta hadisəsi kimi qəbul edilir.

7.4. **«daşınan yük/konteynerlə zərər vurulması nəticəsində üçüncü şəxslər qarşısında məsuliyyət».**
Hazırkı bəndə əsasən, Sığortalının daşımaya qəbul olunmuş yük/konteyner vasitəsilə vurulmuş zərərin ödənilməsinə görə üçüncü şəxslər qarşısında mülki məsuliyyət riski sığortalana bilər (daşıma/göndərilmə müqaviləsinə uyğun olaraq, yükün/konteynerin Sığortalı tərəfindən qəbul edildiyi andan etibarən və yük/konteyner yükalana, qanuni sahibə, yaxud da digər daşıyıcıya təhvil verilənədək), yəni:
a) üçüncü şəxslərin əmlakının məhv olması, yaxud korlanması;
b) üçüncü şəxslərin həyatına və (yaxud) sağlamlığına zərər vurulması.
7.4.1. Bu Qaydaların 7.3-cü bəndinin “b” yarımbəndində göstərilən hadisələr baş verdiyi zaman sığorta ödənişi zərərçəkənə (onun vərəsələrinə) kompensasiya edilməli olan məbləğin hesablanmasını özündə əks etdirən məhkəmə qərarı əsasında ödənilir.
7.4.2. Ödənişin həcmi və xarakteri zərərin vurulduğu ölkədə qüvvədə olan qanunvericiliklə müəyyən olunur.
7.5. **“daşıma prosesi zamanı qoşqunun/konteynerin itməsi, məhv olması, yaxud korlanması nəticəsində Sığortalının onun sahibi qarşısında mülki məsuliyyəti”.**
Hazırkı bəndə əsasən, yüklə, yaxud yüksüz daşımaya/göndərilməyə qəbul olunmuş qoşqu (daşıma/göndərilmə müqaviləsinə müvafiq olaraq, yarımqoşqu/konteyner Sığortalı tərəfindən qəbul edildiyi andan etibarən və qoşqu/konteyner yükalana, qanuni sahibə, yaxud da digər daşıyıcıya təhvil verilənədək) qəbul edildiyi andan etibarən Sığortalının mülki məsuliyyət riski sığortalana bilər.
7.5.1. “qoşqunun, konteynerin daşıma prosesi zamanı itməsi, məhv olması, yaxud korlanması nəticəsində Sığortalının onun sahibi qarşısında mülki məsuliyyət” riski üzrə xüsusi şərt: avtomobil şinlərinin, təkər disklərinin, yaxud qoşqu (yarımqoşqu) tentinin korlanması, məhv olması şəklində ifadə olunan zərər yalnız baş vermiş sığorta hadisəsi nəticəsində qoşqunun (yarımqoşqunun) digər korlanması vəziyyətləri mövcud olduğu hallarda kompensasiya edilir.

7.6.**“gömrük qanunvericiliyinin pozulması nəticəsində gömrük orqanları qarşısında yaranan məsuliyyət”**
Hazırkı bəndə əsasən, yükün itməsi, təyinat yerinin gömrük məntəqəsinə çatdırılmaması nəticəsində Sığortalının gömrük orqanları qarşısında gömrük ödəmələrini təmin etməməsinə görə məsuliyyət riski sığortalana bilər (daşıma/göndərmə müqaviləsinə uyğun olaraq, yük Sığortalı tərəfindən qəbul edildiyi andan etibarən və o, digər daşıyıcıya təqdim olunanadək).
7.6.1. Əlavə olaraq, əgər bu, birbaşa sığorta müqaviləsində göstərilmiş olarsa, Sığortalının BYD (1975-ci il BYD Konvensiyası) kitabçasını tətbiq etməklə yüklərin beynəlxalq daşımaları haqqında Gömrük Konvensiyasının hüquqi təsir dairəsinə aid olan əməliyyatlarla bağlı pozuntulara görə məsuliyyət riski sığortalana bilər. Göstərilən risk gömrük nəzarəti altında olan malların daşınmasını tənzimləyən beynəlxalq və milli gömrük qanunvericiliyinin tələblərinə Sığortalı tərəfindən əməl olunduğu təqdirdə Sığorta olunan hesab olunur

7.7. **«Sığortalının xərcləri».**
Hazırkı bəndə əsasən, Sığortalının bu Qaydaların 7.1–7.5-ci bəndlərində sadalanan hadisələrlə birbaşa və dolayısı ilə əlaqə zamanı baş verən əlavə xərcləri sığortalana bilər, yəni:
a) Sığortalının sığorta hadisəsinin səbəblərinin və şəraitlərinin ilkin aydınlaşdırılması məqsədilə çəkilən zəruri və məqsədəuyğun xərcləri, habelə iş məhkəməyə verilməzdən öncə Sığortalıya qarşı tələblər irəli sürüldüyü zaman (xüsusən də, müstəqil ekspertizanın aparılmasına və s. çəkilən xərclər) onun mənafelərinin müdafiəsi üzrə xərcləri;
b) arbitraj və məhkəmə orqanlarında işlərin aparılmasına dair xərclər;

c) korlanmış yükün (yükün qalıqlarının) məhv edilməsinə dair xərclər;
ç) nəqliyyat vasitəsinin yolun işlək hissəsi olan ərazidən çıxması və ya sürüşməsi hallarında onun qaldırılması və dartılıb çıxarılması üçün çəkilən xərclər
7.7.1. Sığortalının, barəsində sığortalanma həyata keçirilən xərcləri sığorta müqaviləsində göstərilməlidir.

**Maddə 8. Sığorta təminatında məhdudiyyətlər**

8.1. Hazırkı Qaydalara əsasən, Sığortalının aşağıdakılar nəticəsində baş verən mülki məsuliyyəti sığorta hadisəsi hesab olunmur:
8.1.1. istənilən növdən olan hərbi əməliyyatlar, yaxud hərbi tədbirlər və onların nəticələri, habelə vətəndaş müharibələri, terror aktları, mülki iğtişaşlar və tətillər;
8.1.2. dövlət orqanlarının və ya hərbi qurumların nümayəndələrinin hərəkətləri (yükün müsadirə olunması, rekvizisiyası, həbsi, çıxarılması, müvəqqəti saxlanılması və məhv edilməsi);
8.1.3. atom enerjisinin, yaxud radioaktiv materialların istənilən tətbiqi ilə əlaqədar olan atom partlayışının, radiasiyanın, yaxud radioaktiv çirklənmənin birbaşa və ya dolayı təsirləri;
8.1.4. qarşısıalınmaz qüvvənin, yaxud digər fors-major vəziyyətlərinin təsirləri;
8.1.5. daşıma və ya nəqliyyat-ekspeditor müqaviləsi üzrə Sığortalının (Sığortalının işçisinin, nümayəndəsinin), Faydalanan şəxsin, Sığortalının kontragentinin qərəzli hərəkətləri.
"Sığortalının işçisi" anlayışı burada və daha sonralar mətndə əmək müqaviləsi əsasında işi yerinə yetirən şəxslər mənasını verir.
"Sığortalının nümayəndəsi" burada və daha sonralar mətndə daşıma (nəqliyyat-ekspeditor) müqaviləsindən irəli gələn öhdəliklərin icrası məqsədilə Sığortalı və (yaxud) Sığortalının kontragenti tərəfindən cəlb olunmuş istənilən şəxslər, o cümlədən, mülki-hüquqi müqavilə əsasında Sığortalıya xidmətlər göstərən şəxslər mənasını verir.
8.1.6. Sığortalının işçisinin, nümayəndəsinin, Faydalanan şəxsin alkoqolun, narkotikin, yaxud da toksik maddələrin təsiri ilə sərxoş olması;
8.1.7. daşınan yükün qablaşdırılmasının (yığılıb bağlanmasının) müəyyən olunmuş tələblərə uyğun gəlməməsi, habelə mallar göndərildiyi zaman korlanmış qablaşdırma;
8.1.8. yükgöndərənin düzgün (pozulmamış) plombları ilə üstüörtülü saz nəqliyyat vasitələrində, konteynerlərində çatdırılan yükün əskik gəlməsi;
8.1.9. Sığortalının daşıma (nəqliyyat-ekspeditor) müqaviləsi üzrə Sifarişçi (yükgöndərən/yükalan) qismində çıxış edən kontragenti tərəfindən qüvvədə olan nəqliyyat qanunvericiliyinə müvafiq olaraq, bu müqavilədən irəli gələn öhdəliklərin icra olunmaması və ya pozulması;
8.1.10. yükün təbii itkisi də daxil olmaqla onun daşınması zamanı təbii xüsusiyyətlərinin özünü büruzə verməsi;
8.1.11. Faydalanan şəxs, Sığortalının işçiləri, nümayəndələri tərəfindən qanunla qorunan sirri, yaxud da digər məxfi informasiyanı təşkil edən məlumatların açıqlanması, yaxud da öz məqsədləri üçün istifadə olunması;
8.2. Yükün Sığortalı tərəfindən onun öz və ya icarəyə götürülmüş nəqliyyat vasitələri ilə daşınması, yaxud nəqliyyatla göndərilməsi həyata keçirildiyi hallarda aşağıdakı vəziyyətlərdə baş verən hadisə sığorta hadisəsi hesab olunmur:
8.2.1. sürücü tərəfindən nəqliyyat vasitələrinin spirtli içkilərin, narkotikin, yaxud toksik maddələrin təsiri altında sərxoşluq vəziyyətində idarə olunması ilə ifadə olunan yol hərəkəti Qaydalarının pozulması, o cümlədən, nəqliyyat vasitəsini idarə edən sürücünün tibbi yoxlamadan (ekspertizadan) keçməkdən imtina etməsi;
8.2.2. nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması: nəqliyyat vasitələrindən nasaz vəziyyətdə və onların Yol Hərəkəti Qaydalarına əsasən istismarının qadağan olunduğu şəraitlərdə, o cümlədən müəyyən olunmuş qaydada texniki müayinədən keçməmiş nəqliyyat vasitələrindən istifadənin. qadağan olunması.
8.2.3. konkret növdən olan yükün daşınmasına uyğun olmayan nəqliyyat vasitəsindən, konteynerdən

istifadə olunması;
8.2.4. bir nəqliyyat vasitəsində daşınma üçün nəzərdə tutulan malın və (yaxud) konteynerin çəkisi həmin nəqliyyat vasitəsinin yükgötürmə qabiliyyətini ötdüyü hallarda nəqliyyat vasitələrindən istifadə olunması.
8.3. Hazırkı Qaydalara müvafiq olaraq, Sığortalının aşağıdakı şəraitlərdə baş vermiş mülki məsuliyyətinin başlaması sığorta hadisəsi hesab olunmur:

8.3.1. başvermə halına görə sığortanın həyata keçirildiyi, sığorta müqaviləsinin bağlandığı tarixə baş vermiş və Sığortalıya məlum olmuş hadisə;
8.3.2. başvermə halına görə sığortalanmanın həyata keçirildiyi, sığorta ərazisindən və ya sığortalanmanın qüvvədə olduğu müddətdən kənar baş vermiş hadisə;
8.3.3. Əgər Sığortalı hazırkı Qaydalarla müəyyən olunmuş müddətdə və formada (hazırkı Qaydaların 18.1-ci bəndi) Sığortaçıya sığorta riskinin artması barədə məlumat verməzsə, başvermə halına görə sığortalanmanın həyata keçirildiyi, həmin sığorta riskinin artmasından sonra baş vermiş hadisə;
8.3.4. Sığorta müqaviləsi bağlanan zaman Sığortalı tərəfindən Sığortaçıya sığorta obyekti barədə yalan məlumatlar verilməsi;
8.3.5. qaçaq və qeyri-qanuni ticarət yüklərinin daşınması/nəqliyyat- ekspeditor. Qaçaq yükün (qeyri-qanuni ticarət yükünün) daşınması faktı müvafiq hadisələri araşdırmaq səlahiyyətinə malik hakimiyyət orqanı (vəzifəli şəxs) tərəfindən verilmiş sənəd və ya sənədlərlə (arayışlar, protokollar, qərarlar, qərardadlar, hökmlər) təsdiqlənir.
8.3.6. yükalanın yükü qəbul etməkdən imtina etməsi.
8.4. Hazırkı Qaydalara görə aşağıdakılara təminat verilmir:
8.4.1. mənəvi ziyan;
8.4.2. işgüzar nüfuza vurulan ziyan;
8.4.3. əldən çıxmış fayda;
8.4.4. yararlılıq müddəti ötmüş yüklərə vurulan ziyan;
8.4.5. müqavilə öhdəliklərinin icra olunmamasına, yaxud lazımınca icra olunmamasına görə dəbbə pulunun (cərimə, penya) ödənilməsi ilə bağlı cərimə sanksiyaları;
8.4.6. Sığortalının işçilərinin həyatına, sağlamlığına və (yaxud) əmlakına vurulan ziyan;
8.4.7. dolayı itkilər;
8.4.8. Sığortaçı ilə yazılı razılaşma olmadan Sığortalı tərəfindən üçüncü şəxslərə ödənilən zərər;
8.4.9. bərpa xərcləri aşağıdakılardır:
a) korlanmış əmlakın keyfiyyətinin yaxşılaşdırılması, modernləşdirilməsi ilə bağlı yaranan əlavə xərclər;
b) korlanmış əmlakın müvəqqəti və ya köməkçi təmiri ilə bağlı yaranan xərclər;
c) müddətliliyə görə çəkilən xərclər;
ç) lazım olandan artıq çəkilmiş xərclər.
8.5. Əgər sığorta müqaviləsi ilə digər hallar nəzərdə tutulmazsa, aşağıdakı vəziyyətlərdə baş vermiş hadisələr sığorta hadisəsi hesab olunmur.
8.5.1. müşayiətedici daşıma sənədlərində yükün daşınması, yüklənməsi və boşaldılması zamanı onun xüsusi şərtlər və ya ehtiyatlılıq tədbirləri tələb edən xüsusi və spesifik xüsusiyyətləri barədə göstərişlərin olmaması;
8.5.2. ətraf təbii mühitə zərər vurulması;
8.5.3. nəqliyyat vasitəsi hərəkət marşrutu boyunca avtomobillərin duracağı və sürücülərin istirahəti üçün xüsusi olaraq ayrılmış və (yaxud) daima qorunan, olduğu ölkənin yol hərəkəti Qaydalarına müvafiq şəkildə işarələnən yerlərdən kənarda saxlanıldığı zaman (qəza nəqliyyat vasitələri istisna edilməklə) yükün oğurlanması.
Qorunan duracaq anlayışı avtomobil nəqliyyatı vasitələrinin uzun müddət yerləşdirilməsi üçün nəzərdə tutulmuş, nəqliyyat vasitələrinin giriş-çıxışının buraxılış rejimində gecə-gündüz həyata keçirildiyi ərazi mənasını verməlidir.
Xüsusi olaraq ayrılmış duracaq anlayışı isə avtomobil nəqliyyatı vasitələrinin uzun müddət

yerləşdirilməsi üçün ayrıca nəzərdə tutulmuş ərazi mənasını verməlidir.
8.5.4. yüklərin şəxsi və ya icarəyə götürülmüş nəqliyyat vasitələri ilə daşınması/göndərilməsi ilə əlaqədar olaraq, onların "Barələrində sığortanın həyata keçirildiyi nəqliyyat vasitələri Siyahısı"nda göstərilməyən nəqliyyat vasitələri ilə daşınmasına görə məsuliyyət;
8.5.5. nomenklaturası Sığortalı tərəfindən sığorta barədə Ərizədə müəyyən olunmamış yüklərin korlanması və itməsi.
8.5.6. qiymətli yüklərin daşınmasına görə məsuliyyət:
a) qiymətli metalların külçələri və onlardan hazırlanmış məmulatlar;
b) daş-qaş cavahirat və zərgərlik məmulatları;
c) banknotlar və sikkələr;
ç) istiqrazlar, ödəniş vasitələri və digər növdən olan qiymətli kağızlar;
d) incəsənət əsərləri;
e) cins heyvanlar.
8.5.7. əmtəə dəyərinin itirilməsinin əvəzinin ödənilməsi barədə tələblər.
8.6. Hazırkı Qaydalara müvafiq olaraq, nəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyəti sığorta ilə əhatə olunmur və sığorta hadisəsi hesab edilmir.

## Maddə 9. SIĞORTA MƏBLƏĞİ.

9.1. Sığorta məbləği (məcmu məsuliyyət limiti) sığorta müqaviləsi ilə müəyyən olunan, sığorta hadisəsi baş verdiyi zaman hüdudları daxilində Sığortaçının sığorta ödənişi aparmalı olduğu pul məbləğidir.
Sığorta müqaviləsi bağlandığı zaman Tərəflərin razılığı əsasında Sığortaçının sığorta təminatının ayrı-ayrı növləri üzrə məsuliyyət limitləri müəyyən oluna bilər, məsələn:

- bir sığorta hadisəsi üzrə limit;
- ayrı-ayrı risklərlə bağlı limit (risk üzrə limit);
- bir nəqliyyat vasitəsi üzrə limit;
- Sığortalının bu Qaydaların 7.6-cı bəndində göstərilən xərclərinin ödənilməsi üzrə limit.

9.2. Sığorta təminatının sığorta müqaviləsində göstərilən ayrı-ayrı növləri üzrə sığorta məbləği və məsuliyyət limiti sığorta ödənişinin ən son ödəniş məbləğləridir.
9.3. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində Tərəflərin razılığına əsasən, sığorta məbləğinin həcmi sığorta müqaviləsinə əlavə müqavilə bağlamaq yolu ilə artırıla bilər. Bu halda sığorta məbləğinin dəyişməsi sığorta müqaviləsinə əlavə müqavilə şəklində rəsmiləşdirilir və bu zaman Sığortalı sığorta məbləğinin artımına mütənasib ölçüdə əlavə sığorta haqqı ödəyir.

## Maddə 10. Azadolma məbləği

10.1.Tərəflərin razılığına əsasən, sığorta müqaviləsi ilə Sığortalının zərərlərin ödənilməsi üzrə xüsusi iştirakı – azadolma məbləği nəzərdə tutula bilər. Azadolma məbləği Sığortaçı tərəfindən ödənilməli olmayan sığorta məbləğinin mütləq ölçüdə və ya faiz nisbətində zərər hissəsidir.
10.2.Azadolma məbləği sığorta təminatının bütün və ayrı-ayrı hissələri üzrə müəyyən olunur.
10.3.Azadolma məbləği hər bir sığorta hadisəsinə aiddir.

## Maddə 11. Sığorta müqaviləsinin bağlanması qaydası

11.1. Bu Qaydalara əsasən Sığortaçı Sığorta müqaviləsini Sığortalı ilə bağlayır.
11.2. Sığorta müqaviləsini bağlamaqdan ötrü Sığortalı özünə məlum olan, Sığortaçının sığorta riskinin dərəcəsini müəyyənləşdirməsinə təsir edə biləcək halları özündə əks etdirən, müəyyən olunmuş formada yazılı ərizəni doldurarak Sığortaçıya təqdim etməlidir. Bu ərizə Sığorta müqaviləsinin tərkib hissəsi hesab edilir.
11.3. Sığortalının ərizəsində aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

11.3.1. Sığortalının adı (fiziki şəxs olduqda, həmçinin soyadı və atasının adı), ünvanı və telefon nömrəsi;
11.3.2. Sığortala obyekti haqqında məlumat;
11.3.3. Riskin dərəcəsini və sığorta haqqını müəyyənləşdirmək üçün lazım olan digər məlumatlar.
11.4. Sığorta müqaviləsi yazılı formada aşağıdakı kimi bağlanır:
11.4.1. Tərəflərin bu Qaydalar əsasında sığorta müqaviləsini tərtib edərək qarşılıqlı imzalaması yolu ilə;
11.4.2. Bu Qaydalar ilə Sığortalının razı olmasını təsdiq etməsi şərti ilə Sığortaçı tərəfindən ona sığorta şəhadətnaməsinin verilməsi yolu ilə;
11.5. Sığorta şəhadətnaməsi tərtib olunduğu halda, sığorta şəhadətnaməsində sığorta predmetinin sığortalandığı risklər konkret olaraq sadalanmalıdır.
11.6. Sığorta müqaviləsi bağlanarkən Sığortalı özünə məlum olan və Sığortaçının sığorta müqaviləsindən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə Sığortaçıya məlumat verməlidir.
11.7. Eyni sığorta marağı ilə bağlı bir neçə sığortaçı ilə sığorta müqaviləsi bağlayan Sığortalı bu barədə sığortaçılardan hər birinə məlumat verməlidir. Həmin məlumatda digər sığortaçının adı və müvafiq sığorta məbləği göstərilməlidir. Tələb edildikdə bu məlumatları təsdiq edən müvafiq sənədlər təqdim olunmalıdır.
11.8. Sığorta obyekti bir neçə sığortaçıda sığortalandığı halda, sığortaçılar Sığortalı qarşısında birgə məsuliyyət daşıyırlar.

**Maddə 12. Sığorta müqaviləsinə əlavələr və dəyişikliklər edilməsi və xitam verilməsi qaydası**

12.1. Sığorta müqaviləsinə edilən əlavələr və dəyişikliklər yazılı formada tərtib olunmalı və hər iki tərəfdən imzalanmalıdır.
12.2. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:
12.2.1. Sığorta predmeti artıq mövcud olmadıqda;
12.2.2. Qanunvericilikdə müəyyən edilmiş hallar hallar istisna olmaqla, Sığortalı fiziki şəxs öldükdə və ya Sığortalı hüquqi şəxs ləğv olunduqda:
12.2.3. Sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;
12.2.4. Sığortaçı Sığortalı qarşısında öz öhdəliklərini yerinə yetirdikdə;
12.2.5. Sığorta marağı artıq mövcud olmadıqda;
12.2.6. Sığortalı sığorta haqqını qanunvericilikdə və Sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;
12.2.7. Qanunvericilikdə müəyyən edilmiş digər hallarda.

**Maddə 13. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə**

13.1. Bu Qaydaların 12.2-ci bəndində göstərilən hallarda Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi üçün əsas olan şərait yarandıqda, Sığorta müqaviləsinə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.

13.2. Sığorta müqaviləsində nəzərdə tutulmuş hallarda, həmçinin tərəflərin başqa cür razılaşmasına əsasən, sığorta müqaviləsinə Sığortalının və ya Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən, bu barədə bir tərəf digərinə ən azı 30 (otuz) gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 (altmış) gün, üç aydan az müddətə bağlanmış olduqda isə 5(beş) iş günü əvvəl), tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir. Belə bildiriş Sığorta müqaviləsinin ləğvi tarixini özündə əks etdirməklə Sığortalının və ya Sığortaçının Sığorta müqaviləsində göstərilən ünvanına göndərildikdə, Sığorta müqaviləsi bildirişdə göstərilən tarixdən ləğv edilmiş sayılır. Bu bildirişin poçt

vasitəsilə göndərilməsi, yuxarıda göstərildiyi kimi, həmin xəbərdarlığın edilməsi faktının sübut edilməsi ücün kifayətdir və Sığorta müqaviləsi bildirişdə göstərilən tarixdən və vaxtdan etibarsız sayılacaq.

**Maddə 14. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri**

14.1. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, Sığortaçı həmin Sığorta müqaviləsi üzrə işlərin aparılması xərclərini çıxmaqla Sığorta müqaviləsinin qurtarmamış müddəti üçün sığorta haqqını ona qaytarır;

14.2. Sığorta müqaviləsinə Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqqını bütünlüklə Sığortalıya qaytarır; əgər bu tələb Sığortalının Sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı həmin Sığorta müqaviləsi üzrə işlərin aparılması xərcləri çıxılmaqla, Sığorta müqaviləsinin qurtarmamış müddəti üçün sığorta haqqını qaytarır.

14.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı Sığortalıya qaytarılmır.

14.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının Sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydaların 14.1-ci və 14.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

14.5. Sığorta müqaviləsi üzrə sığorta haqqının yenidən hesablanmalı olması halında Sığortaçı bunlardan hansının daha yüksək olmasından asılı olaraq, artıq qazanılmış sığorta haqqını və ya hər hansı minimal və (və ya) depozit sığorta haqqının qısamüddətli hissəsini saxlamaq hüququna malikdir.

**Maddə 15. Sığorta müqaviləsində əlavə şərtlərin nəzərdə tutulması**

Sığorta müqaviləsi bağlanarkən Sığortalı və Sığortaçı qanunvericiliyə zidd olmayan başqa şərtlər barədə razılığa gələ bilərlər.

**Maddə 16. Sığorta müqaviləsinin qüvvəyə minməsi**

Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, Sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən sonra qüvvəyə minir.

**Maddə 17. Sığorta müqaviləsinin qüvvədə olma müddəti**

Sığorta yalnız sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən sığorta hadisələrini əhatə edir.

**Maddə 18. Sığorta müqaviləsi qüvvədə olduğu zaman tərəflərin qarşılıqlı münasibətləri**

18.1. Sığortalı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan və Sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən sığorta riskinin artması ilə bağlı bütün hallar barədə Sığortaçıya məlumat verməlidir.
18.2. Sığorta riskinin əhəmiyyətli dərəcədə artmasına təsir göstərə bilən hallar haqqında məlumatı aldıqdan sonra Sığortaçı :

18.2.1. Sığorta müqaviləsinə müvafiq dəyişikliklər edə bilər;

18.2.2. əlavə sığorta haqqının ödənilməsini tələb edə bilər;
18.2.3. bu şərait yarandıqdan sonra Sığorta müqaviləsinə xitam verə bilər.

**Maddə 19. Sığorta haqqı**

Sığorta haqqı illik sığorta tariflərinə əsasən hesablanır.

**Maddə 20. Sığorta haqqının ödənilməsi**

20.1. Sığorta haqqını nağdsız formada ödəyərkən Sığortalı ödəniş tapşırığında sığorta haqqının ödənilməsinin əsasını təşkil edən Sığorta müqaviləsinin, yaxud Sığorta şəhadətnaməsinin nömrəsinə istinad etməlidir.
20.2. Sığorta haqqının ödənilməsi qaydası və forması Sığorta müqaviləsinin şərtlərinə uyğun olaraq həyata keçirilir.
20.3. Sığorta haqqı onun Sığortaçının bank hesabına daxil olduğu və ya Sığortaçı tərəfindən nağd ödəniş formasında alındığı gün ödənilmiş hesab olunur.

**Maddə 21. Sığorta haqqının vaxtında ödənilməməsi**

21.1. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə Sığortaçı onun ödənilməsi üçün bu Qaydaların 21.2-ci bəndinin tələbini nəzərə alaraq yazılı surətdə 15 (on beş) günədək müddət müəyyən edə bilər.
21.2. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi Sığorta müqaviləsi bağlandığı gündən bir aydan gec olmayaraq ödənilməlidir.

21.3. Əgər müqavilə ilə digər hallar nəzərdə tutulmazsa, bir ildən az müddətə sığorta zamanı Sığortalı sığorta haqqını birdəfəlik ödənişlə tam həcmdə ödəyir. Bu zaman sığorta haqqı illik sığorta haqqına nəzərən aşağıdakı ölçülərdə hesablanır (natamam ay tam ay kimi qəbul olunur):

| Sığorta müqaviləsinin qüvvədə olduğu müddət (aylarla) | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| Sığorta haqqı (illik sığorta haqqının %-lə nisbətində) | | | | | | | | | | |
| 13 | 30 | 40 | 50 | 60 | 70 | 75 | 80 | 85 | 90 | 95 |

21.4. Sığorta müqaviləsi bir və ya bir ildən yuxarı müddətə bağlandığı zaman, Sığortaçı Sığortalıya sığorta haqqını möhlətlə ödəmək imkanı vermək hüququna malikdir. Sığorta haqqının möhlətlə ödənilməsi qaydası sığorta müqaviləsində göstərilir.

**Maddə 22. Sığorta hadisəsi baş verdikdə Sığortalının vəzifələri**

22.1. Bu Qaydalar əsasında bağlanmış Sığorta müqaviləsi üzrə sığorta hadisəsinin baş verməsi barədə Sığortalı, yaxud Faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində Sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda qanunvericiliyə uyğun olaraq həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir.
22.2. Sığorta müqaviləsində, yaxud şəhadətnaməsində sığorta hadisəsinin baş verməsi barədə məlumat verməyin müddəti və (və yaxud) metodu göstərilmişdirsə, bu müəyyən olunmuş müddətdə və həmin metodla həyata keçirilməlidir.
22.3. Sığortalı sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları Sığortaçıya təqdim etməlidir.

22.4. Sığortalı Sığortaçıya araşdırma aparmağa və ona zərərin baş verdiyi şəraiti, onun xarakteri və həcmini müəyyənləşdirmək üçün əhəmiyyət daşıyan sənədlərlə maneəsiz tanış olmaq imkanını verməlidir;
22.5. Sığorta təminatı verildikdən sonra Sığortalının itkiləri üçüncü şəxslər tərəfindən tam şəkildə, yaxud qismən ödənilərsə, o cümlədən qanunvericilikdə nəzərdə tutulmuş iddia müddəti ərzində qanuna görə Sığortalını sığorta təminatını əldə etmək hüququndan tam şəkildə və ya qismən məhrum edən şərait yaranarsa, üçüncü şəxslərdən vəsaitləri aldıqdan sonra, yaxud Sığortaçıdan qanun əsasında sığorta təminatının müvafiq hissəsini Sığortaçıya qaytarmaq əsasında ödənişinin ödənilmə tələbi alındıqdan sonra 5 iş günü ərzində müvafiq məbləği geri qaytarmalıdır.
22.6. Sığorta hadisəsinin baş verməsi və vurulan zərərin həcminin sübuta yetirilməsi öhdəliyini Sığortalı daşıyır.

**Maddə 23. Ziyanın qarşısının alınması və həcminin azaldılması**

Bu sığorta ilə əhatə olunmasından asılı olmayaraq, Sığortalı artıq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətin azaldılması və gələcəkdə baş verə biləcək belə halların qarşısının alınması məqsədi ilə bütün ağlabatan və zəruri tədbirləri görməyə borcludur. Sığortalının belə tədbirləri görməməsinin birbaşa və ya dolayı nəticəsi olaraq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətə münasibətdə sığorta təminatı verilmir. Belə tədbirlər həyata kecirilərkən Sığortalı Sığortacının verdiyi bütün təlimatları yerinə yetirməyə borcludur.

**Maddə 24. Sığortaçı tərəfindən nəzarət**

24.1. Sığortaçı sığorta hadisəsi və onun nəticələri barədə Sığortalının bütün hərəkətlərinə nəzarət etmək və sığorta ödənişinin verilməsinə təsir göstərən bütün məsələlər barədə qərar vermək imkanına malik olmalıdır.

24.2. Sığortalı sığorta hadisəsi nəticəsində zərər çəkmiş bütün əmlakı Sığortaçı onlara baxış keçirənə qədər zədəli olduğu vəziyyətdə qoruyub saxlamalıdır.

24.3. Sığortaçı, həmçinin onun səlahiyyət verdiyi istənilən şəxs üzərinə heç bir məsuliyyət götürmədən və ya sığorta müqaviləsi üzrə Sığortaçının hər hansı hüquqlarını azaltmadan zərərin baş verdiyi binaya girmək, onu öz sahibliyinə götürmək və sahibliyində saxlamaq, həmçinin istənilən Sığorta olunan əmlakı sahibliyinə götürmək və ya onun hər hansı ağlabatan məqsədlər üçün və üsullarla Sığortaçıya verilməsini tələb etmək hüququna malikdir. Əgər yuxarıda sadalanan şərtlər yerinə yetirilməzsə, sığorta ödənişi verilmir.

24.5. Sığortalı sığorta hadisəsinə aid olan bütün sənədləri və məlumatları Sığortaçıya təqdim etməli, həmçinin hadisənin bütün digər iştirakçılarının və sığorta hadisəsi ilə əlaqəli məsələlərə baxan səlahiyyətli dövlət orqanlarının fəaliyyətləri barədə ona dərhal xəbər verməlidir.

24.6. Sığortalının Sığortaçı ilə ilkin razılıq olmadan öz məsuliyyətinin tanınmasına yönəlmiş hər hansı hərəkəti etməyə, saziş bağlamağa və ya vəd verməyə hüququ yoxdur.

24.7. Sığortaçı sığorta hadisəsi ilə bağlı bütün rəsmi və qeyri-rəsmi araşdırmalarda Sığortalının mənafelərini öz hesabına təmsil və müdafiə edə bilər.

**Maddə 25. Sığorta hadisəsini sübut etmək vəzifəsi**

25.1. Sığorta hadisəsi faktının və dəyən zərərin həcminin sübut edilməsi vəzifəsi Sığortalının üzərinə qoyulur.

25.2. Sığorta hadisəsi faktının və şəraitinin, itkilərin həcminin təsdiq edilməsi üçün qanunvericilik və işgüzar adətlərə uyğun olaraq tələb olunan sənədlər də daxil olmaqla, Sığortalı özündə olan bütün sənədləri Sığortaçıya təqdim etməlidir.

**Maddə 26. Sığorta haqqının hesablanması və ödənilməsi**

26.1.Sığorta haqqının məbləği və ya onun hesablanması və ödənilməsi qaydası Sığorta müqaviləsi ilə müəyyən edilir.
26.2.Sığorta haqqını nağdsız formada ödəyərkən Sığortalı ödəniş tapşırığında sığorta haqqının ödənilməsinin əsasını təşkil edən Sığorta müqaviləsinin, yaxud sığorta şəhadətnaməsinin nömrəsinə istinad etməlidir.
26.3.Sığorta haqqının ödənilməsi qaydası və forması Sığorta müqaviləsinin şərtlərinə uyğun olaraq həyata keçirilir.
26.4. Sığorta haqqı onun Sığortaçının bank hesabına daxil olduğu və ya Sığortaçı tərəfindən nağd ödəniş formasında alındığı gün ödənilmiş hesab olunur.

**Maddə 27. Sığorta haqqının vaxtında ödənilməməsi**

27.1.Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə Sığortaçı onun ödənilməsi üçün bu Qaydaların 27.2-ci bəndinin tələbini nəzərə alaraq yazılı surətdə 15 (on beş) günədək müddət müəyyən edə bilər.
27.2. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi Sığorta müqaviləsi bağlandığı gündən 1 (bir) aydan gec olmayaraq ödənilməlidir.

**Maddə 28. Valyuta haqqında qeyd-şərt**

28.1. Sığorta məbləğinin, azadolma məbləğinin və tələblərin Sığorta müqaviləsində xarici valyuta ilə ifadə olunduğu hallarda, bütün ödənişlər ya Azərbaycan Respublikası Milli Bankının ödənişin həyata kecirildiyi tarixə olan rəsmi məzənnəsi əsasında Azərbaycan manatı ilə, ya da Azərbaycan Respublikasının valyuta qanunvericiliyinə müvafiq olduğu hallarda hər hansı xarici valyuta ilə həyata keçirilə bilər.
28.2. Əgər sığorta ödənişinin verilməsi ücün əsas olan sənədlər Azərbaycan manatı və ya Sığorta müqaviləsinin valyutasından fərqli valyutada ifadə olunmuşdursa, Sığorta müqaviləsinin ifadə olunduğu valyutaya cevirmə Azərbaycan Respublikası Milli Bankının həmin sənədin buraxıldığı tarixə uyğun rəsmi məzənnəsi əsasında həyata kecirilir.

**Maddə 29. Sığorta ödənişinin hesablanması qaydası**

Sığortlanmış əmlaka vurulan zərərlərin həcmi müəyyən olunduqdan sonra sığorta ödənişinin hesablanması aşağıdakı yollarla həyata keçirilir:

29.1. Natamam sığorta zamanı – sığorta məbləğinin sığorta dəyərinə olan nisbəti əsasında vurulmuş zərərlərə təminat verilir;

29.2.Sığorta müqaviləsində azadolma məbləği nəzərdə tutulduqda - azadolma məbləğinin miqdarı çıxılmaqla zərərlərə təminat verilir;

29.3.Sığorta müqaviləsi üzrə sığorta ödənişlərinin ümumi məbləği sığorta məbləğini aşa bilməz.

**Maddə 30. Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlərin siyahısı**

30.1. Sığorta ödənişinin verilməsi haqqında qərar qəbul etmək üçün Sığortalı sığorta hadisəsinin baş verməsi faktını, həmçinin Sığorta olunan əmlaka dəymiş zərərin həcmini göstərən bütün sənədləri, o cümlədən aşağıdakı sənədləri Sığortaçıya təqdim etməlidir:
30.1.1. sığorta hadisəsi haqqında yazılı ərizə;
30.1.2. Sığorta müqaviləsinin (sığorta şəhadətnaməsinin) əsli;
30.1.3. sığorta hadisəsinin baş verməsini faktını təsdiq edən sənədlər;
Sığorta ödənişi Sığortalının sığorta hadisəsi barədə yazılı ərizəsi əsasında həyata keçirilir. Sığortalı sığorta ödənişinin aparılması barədə ərizəyə sənədlərin, o cümlədən, zərərin vurulması faktını və zərərin güman edilən ölçüsünü təsdiq edən səlahiyyətli orqanlar tərəfindən verilmiş sənədlərin əslini və ya nüsxələrini əlavə edir. Bu cür sənədlərə aiddir:
30.1.3.1. Sığortalıya qarşı əlavə olunmuş sənədlərlə birgə irəli sürülən iddia (Sığortalının cavabdeh olduğunu əks etdirən iddia ərizəsi; Sığortalının üzərinə üçüncü şəxslərin həyatına, sağlamlığına, yaxud əmlakına vurulmuş zərərin ödənilməsi öhdəliyini qoyan məhkəmə qərarı);
30.1.3.2. yükün/konteynerin/qoşqunun daşımaya, göndərilməyə qəbul edilməsini təsdiq edən sənədlər, beynəlxalq daşımalarla bağlı olaraq, sənədlərdə gömrük orqanlarının qeydi öz əksini tapmalıdır;
30.1.3.3. daşıma/göndərilmə müqaviləsi, tələbnamə, yol vərəqəsi, daşıma/göndərilmə üzrə xidmət haqlarının ödənilməsinə məlumatlar;
30.1.3.4. yükə dair sənədlər – qaimələr, hesab-fakturalar, qablaşdırma vərəqələri, mal-nəqliyyat qaimələri (o cümlədən, mövcud qanunvericiliyə uyğun olaraq, digər nəqliyyat sənədləri);
30.1.3.5. Sığortalının (sürücünün) hadisənin başvermə şəraitləri barədə izahatı;
30.1.3.6. hadisənin başvermə faktını və təqsirli şəxsləri təsdiqləyən səlahiyyətli orqanlar tərəfindən rəsmiləşdirilmiş sənədlər:
a) hadisənin sxemi, iştirakçılar barədə məlumatlar, inzibati iş üzrə qərar (yol-nəqliyyat hadisəsi (YNH) zamanı);
b) yanğın barədə akt, yanğının səbəbi barədə rəy (ekspert arayışı), cinayət işinin qaldırılması faktı barədə qərar (yanğın zamanı);
c) gömrük yoxlaması barədə akt, inzibati iş üzrə qərar (itki, yükün beynəlxalq daşıma zamanı korlanması);
ç) hüquq-mühafizə orqanlarına məlumatın təsdiqlənməsi, cinayət işinin qaldırılması barədə qərar (işin qaldırılmasından imtina);
30.1.3.7. bu Qaydaların 30.1.3.1, 30.1.3.2, 30.1.3.5, 30.1.3.6-cı bəndlərində göstərilən sənədlər orijinallar şəklində, lakin əsli sənədlərin təqdim edilməsi qeyri-mümkün olduğu hallarda onların tələb olunan qaydada təsdiqlənmiş nüsxələri təqdim olunur;
30.1.3.8. bu Qaydaların 30.1.3.6-cı bəndində göstərilən sənədlər onların Sığortalı tərəfindən qəbul edildiyi gündən etibarən 5 (beş) gündən gec olmayaraq, Sığortaçıya təqdim olunmalıdır;
30.2. Sığortaçının mülahizəsinə əsasən, sığorta ödənişinin verilməsi haqqında qərar qəbul etmək üçün lazım olan digər sənədlər.

**Maddə 31. Sığorta ödənişinin həyata keçirilməsi qaydası və şərtləri**

31.1. Sığorta ödənişinin miqdarının müəyyən edilməsi və ödənilməsi qaydası bu Qaydalara əsasən bağlanan Sığorta müqaviləsi ilə müəyyən edilir.
31.2. Sığorta müqaviləsində azadolma məbləği nəzərdə tutulduğu halda, sığorta ödənişi azadolma məbləği çıxılmaqla ödənilir.
31.3. Sığorta ödənişinin verilməsi zamanı Sığortaçı sığorta ödənişi məbləğindən Sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.
31.4. Qanunvericilikdə və bu Qaydalarda nəzərdə tutulan sığorta ödənişindən imtina halları istisna olmaqla, Sığortaçı bu Qaydaların 30-cu maddəsində sadalanan sənədləri aldıqdan sonra 15 iş günü ərzində sığorta aktını tərtib edir və razılaşdırılması üçün bu sənədi Sığortalıya təqdim edir, yaxud da sığorta ödənişinin verilməsindən imtina olunduğu halda imtinanın səbəblərini əsaslandırmaqla Sığortalıya yazılı məlumat verir.

31.5. Sığorta ödənişinin verilməsi sığorta aktı həm Sığortaçı, həm də Sığortalı tərəfindən imzalandıqdan sonra 10 iş günü ərzində həyata keçirilir.
31.6. Qanunvericilikdə və ya bu Qaydalarda nəzərdə tutulmuş əsaslar aşkar olunduqda və ya əmələ gəldikdə, Sığortaçı verilmiş sığorta ödənişinin geri qaytarılması tələbini irəli sürmək hüququna malikdir.

**Maddə 32 . Sığorta ödənişinin verilməsindən imtinanın əsasları**

32.1. Əgər Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, aşağıdakı halların nəticəsində ortaya çıxan istənilən zərərlərin bu sığorta ilə əvəzi ödənilmir və sığorta ödənişinin verilməsindən imtina edilir:
32.1.1 bu Qaydaların 18.1. və 22.1-ci bəndlərinin tələblərinə əməl edilməməsi nəticəsində, o cümlədən sığorta predmeti və (və ya) sığorta hadisəsi barəsində Sığortalının Sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində Sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda ;
32.1.2. Sığortalının, müvafiq hallarda zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;
32.1.3. Sığorta müqaviləsi və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;
32.1.4. Sığortalının Sığorta olunan hava nəqliyyatı vasitəsinə dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, Sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;
32.1.5. Sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına Sığortalı tərəfindən maneçilik törədilməsi;
32.1.6. Sığortalının zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərər vuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir;
32.1.7. baş vermiş hadisənin Sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;
32.1.8. sığorta hadisəsinin sığorta haqqının tam və ya onun ilk hissəsinin ödənilməsi müddəti başa çatdıqdan sonra baş verməsi halında sığorta haqqı ödənilməmiş olduqda;
32.1.9. sığorta hadisəsinin sığorta haqqının növbəti hissəsinin müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda;

32.3. Zərər vurulması barədə iddianın məhkəmədənkənar tənzimləndiyi hallarda sığorta ödənişi Sığortaçıda zərərin vurulması faktını və ölçüsünü təsdiq edən bütün zəruri sənədlər olduğu təqdirdə həyata keçirilir. Sığortaçı vurulmuş zərərin ölçüsünün müəyyən edilməsi məqsədilə müstəqil ekspertiza cəlb etmək və həmin müstəqil ekspertizanın rəyi əsasında sığorta ödənişini aparmaq hüququna malikdir.
32.4. Hazırkı Qaydalar əsasında sığorta ödənişinə sənədli şəkildə təsdiq olunmuş zərər daxildir:
32.4.1. "daşımaya/göndərilməyə qəbul olunmuş yükün itməsinə, məhv olmasına, yaxud korlanmasına görə səlahiyyətli şəxs qarşısında mülki məsuliyyət"riskinə görə zərərin ödənilməsi ilə əlaqədar olaraq:
a) yük dəyərinin (yükün tam məhv olduğu, yaxud itməsi hallarında), yaxud da onun dəyərinin aşağı salındığı məbləğin (yükün korlanması zamanı) ölçüsündə. Yükün dəyəri yük nəqliyyat qaiməsi, habelə yükün əqiqi dəyərini təsdiq edən sənədlərlə (satıcının ödənişə dair hesabı və hesab-faktura (qaimə), hesab-spesifikasiya, malın dəyərinin ödənilməsinə dair ödəniş tapşırıqları və s.) müəyyən olunur.
b) korlanmış yükün bərpası ilə bağlı təmir işləri aparıldığı hallarda – hazırkı Qaydaların 7.4.9-cu

bəndində göstərilən xərclər istisna edilməklə bərpa xərcləri həcmində;
32.4.2. "səlahiyyətli şəxs qarşısında maliyyə itkilərinə görə mülki məsuliyyət" riski üzrə zərərin ödənilməsi ilə əlaqədar olaraq;
Yükün Sığortalı tərəfindən göndərilməsi və (yaxud) çatdırılması lazımınca icra olunmadığı hallarda bu cür xərclər bu şəxs tərəfindən çəkilməmiş olduğu təqdirdə yalnız səlahiyyətli şəxsin müvafiq sənədlərlə təsdiqlənmiş zərəri ödənilir.
32.4.3. "daşınan yük/konteyner vasitəsilə zərər vurulması nəticəsində üçüncü şəxslər qarşısında mülki məsuliyyət" riski üzrə zərərin ödənilməsi ilə əlaqədar olaraq:
a) üçüncü şəxslərin həyat və sağlamlığına zərər vurulması;
Sığorta ödənişi məhkəmə qərarı əsasında sığorta məbləği daxilində mövcud qanunvericiliklə nəzərdə tutulduğu miqdarda ödənilir. Bu zaman sığorta ödənişinin miqdarına aşağıdakılar daxil edilə bilər:
- zərərçəkmiş şəxsin əmək qabiliyyətini itirməsi, yaxud da törədilmiş şikəstlik və ya sağlamlığa digər şəkildə zərər vurulması ilə bağlı azalma nəticəsində məhrum olduğu əməkhaqqı, əmək qabiliyyətinin itirildiyi bütün müddət üçün;
- zərərçəkmiş şəxsin sağlamlığının bərpası üçün zəruri olan əlavə xərclər (gücləndirilmiş qidalanma, sanatoriya kurort müalicəsi, kənar qulluq, protezləşdirmə, nəqliyyat xərcləri və s.);
-əməkhaqqının zərərçəkmiş şəxsin vəfatı zamanı onun öhdəsində olan, yaxud da qanunvericiliyinin tələblərinə müvafiq qaydada müəyyən olunan müddət ərzində ondan təminat almaq hüququna malik əmək qabiliyyətsiz şəxslərin məhrum olduqları hissəsi;
- zərərçəkmiş şəxsin vəfatı zamanı dəfn xərcləri.
b) üçüncü şəxslərin əmlakın məhv olması, korlanması;
Sığorta ödənişi itirilmiş (korlanmış) əmlakın həqiqi dəyərinə uyğun miqdarda həyata keçirilir. Üçüncü şəxslərin əmlakının həqiqi dəyəri satıcının hesabında göstərilən qiymətdən, o olmadıqda isə, əmlakın yerləşdiyi yerdə oxşar mal üçün olan adi qiymətdən çıxış edərək müəyyən olunur.
Korlanmış əmlakın bərpası üzrə təmir işləri aparıldığı hallarda – hazırkı Qaydaların 7.4.9-cu bəndində göstərilən xərclər istisna olunmaqla, bərpa xərcləri həcmində.

32.4.4. "Sığortalının qoşqunun/konteynerin sahibi qarşısında onun daşıma zamanı itməsi, məhv olması, yaxud korlanması ilə bağlı mülki məsuliyyət" riski üzrə zərərin ödənilməsi ilə bağlı olaraq:
a) qoşqunun (yarımqoşqunun), konteynerin itməsi, yaxud məhv olduğu hallarda – sığorta müqaviləsi ilə müəyyən olunmuş sığorta məbləği daxilində. Qoşqunun, konteynerin dəyəri onun bazar qiyməti əsasında müəyyən olunur. Qoşqunun məhv olması anlayışı onun bərpası üzrə zəruri xərclər onun bazar qiymətinin 90%-ni ötdüyü zaman baş verən korlanma mənasını verir. Qoqunun (yarımqoşqunun), konteynerin bazar qiyməti qoşqunun (yarımqoşqunun), konteynerin yerləşdiyi ərazidə oxşar mal üçün qoyulan adi qiymətdən çıxış edərək müəyyən olunur.
b) qoşqu (yarımqoşqu), konteyner korlandığı hallarda onun bərpası üzrə xərclər kompensasiya olunur, yəni:
- ehtiyat hissələrinin və materialların;
- təmirin dəyəri (bərpa işlərinin aparılması) – hazırkı Qaydaların 7.4.9.-cu bəndində göstərilən xərclər istisna olunmaqla, bərpa xərcləri həcmində;
-qoşqu, konteyner avadanlığının daşınması, sökülməsi və quraşdırılması üzrə xərclər.
32.4.5. Sığortalının xərclərinin ödənilməsi ilə əlaqədar olaraq:
a) zərərlərin aşağı salınması məqsədilə sığorta hadisəsi baş verdiyi zaman çəkilən xərclər.
Bu cür xərclər, hətta müvafiq tədbirlər uğursuz olsa da və müqavilə üzrə digər zərərlərin ödənilməsi ilə onların müqavilə ilə müəyyən olunmuş sığorta məbləğini ötə bilmələrindən asılı olmayaraq, ödənməlidir. Göstərilən xərclər sığorta müqaviləsinə əsasən müəyyən olunmuş sığorta məbləğinin sığorta hadisəsi nəticəsində vurulan zərərin ölçüsünə mütənasib qaydada ödənilir.
Əgər sığorta müqaviləsi ilə digər hallar nəzərdə tutulmazsa, Sığortaçının ödəməli olduğu zərərlərin azaldılması məqsədilə çəkilən xərclər sığorta məbləğinin 10%-indən (on faizindən) çox olmamaq şərtilə ödənilir;
b) hazırkı Qaydaların 7.6-cı bəndinin "a", "b","c","d" və "e" yarımbəndlərində göstərilən xərclər

sığorta müqaviləsi ilə müəyyən olunmuş məsuliyyət limitləri daxilində kompensasiya edilir və bu zaman sığorta müqaviləsinin (şəhadətnaməsinin) qüvvədə olduğu müddət ərzində yaranan bütün sığorta hadisəsi üzrə sığorta ödənişinin ödənmə məbləğləri müvafiq limit miqdarını ötə bilməz.
c) sığorta hadisəsi baş verdiyi zaman zərərlərin ödənilməsi məqsədilə Sığortalının çəkdiyi xərclərinin ödənişi üçün şəxslərin iddiaları (sığorta ödəmələri) tənzimləndikdən sonra həyata keçirilir.
32.5. sığorta ödənişi məhkəmənin qərarı əsasında həyata keçirildiyi hallarda zərərin vurulması faktını və vurulmuş zərərin ölçüsünü təsdiq edən sənədlər (məhkəmənin qərarı, icra vərəqəsi) Sığortaçıya təqdim olunmalıdır.
23.6. Əgər Sığortalı yazılı razılıq əsasında və Sığortaçı ilə razılaşdırılmış ölçüdə (yazılı formada) vurulmuş zərərin əvəzini özü ödəmiş olarsa, bu zaman ödəniş Faydalanan şəxsin zərərin ödənilməsi üzrə tələblərinin Sığortalı tərəfindən təmin edilməsi barədə tələb olunan qaydada rəsmiləşdirilmiş yazılı bildiriş, habelə hazırkı Qaydaların 30-cu maddəsində sadalanan sənədlər onun tərəfindən təqdim olunduğu halda Sığortalıya ödənilə bilər.
32.7. Sığortaçı Faydalanan şəxslə yazılı razılıq əsasında korlanmış əmlakın təmirini sığorta ödənişi hesabına təşkil və ona görə müvafiq ödənişi həyata keçirmək hüququna malikdir.
Yerinə yetirilmiş təmir işlərinin keyfiyyətinə görə Faydalanan şəxs qarşısında məsuliyyət təmiri həyata keçirmiş şəxsin üzərinə düşür.
32.8. Əgər zərər bir neçə Faydalanan şəxsə vurulmuşsa və zərərin ümumi həcmi sığorta məbləğini və ya məsuliyyət limitini ötmüş olarsa, bu zaman hər bir Faydalanan şəxs üçün ödəniş ona vurulan zərərin ölçüsünün sığorta ödəmələri həyata keçirildiyi anda Sığortaçıya məlum olan bütün Faydalanan şəxslərə vurulmuş zərərin ölçüsü nisbətinə mütənasib qaydada ödənilir.
23.9. Sığorta ödənişinin məbləğləri sığorta müqaviləsi ilə nəzərdə tutulan azadolma məbləği çıxılmaqla ödənilir.
32.10. Əgər sığorta müqaviləsində sığorta haqqı və sığorta məbləği xarici valyuta, yaxud da şərti pul vahidləri ilə ifadə olunan müəyyən olunmuş məbləğə ekvivalent məbləğdə rublla müəyyən olunarsa, bu zaman sığorta ödənişinin rublla ödənilməli olan məbləği müvafiq valyutanın, yaxud da şərti pul vahidlərinin ödəniş gününə olan rəsmi məzənnəsi əsasında, qanunla, yaxud da Tərəflərin razılığı ilə başqa bir məzənnə və ya onun təyin olunma tarixi müəyyən edilmədiyi şərtlər daxilində müəyyən olunur.
Xarici valyutadan, habelə öhdəliklər üzrə hesablaşmaların aparılması zamanı xarici valyuta ilə ifadə olunan ödəmə sənədlərindən istifadə olunmasına qanunla müəyyən olunmuş hallarda, qaydada və şərtlərlə, yaxud da onlar üçün müəyyən olunmuş qaydada yol verilir.
32.11. Əgər sığorta hadisəsinin baş verməsi anında Sığortalının hazırkı Qaydalar əsasında sığortaya qəbul olunmuş öhdəliyinin bir neçə sığortaçıda sığortalandığı məlum olarsa (ikiqat sığorta), bu zaman sığortaçıların hər biri tərəfindən ödənilməli olan sığorta ödənişinin məbləği onlar tərəfindən bağlanılan müqavilə üzrə sığorta məbləğinin Sığortalı tərəfindən bağlanılmış bütün sığorta müqavilələri üzrə ümumi məbləğə olan nisbətinə mütənasib qaydada azaldılmış olur.
32.12. Sığorta ödənişinin aparılması miqdarı da daxil olmaqla, sığorta hadisəsinin sığorta hadisəsi kimi təsdiqlənməsi barədə qərar Sığortalı, Faydalanan şəxs tərəfindən hazırkı Qaydaların 30-cu maddəsində göstərilən bütün zəruri sənədlər təqdim olunduqdan sonra 15 gün ərzində sığorta aktı ilə rəsmiləşdirilərək, Sığortaçı tərəfindən qəbul olunur.
32.13. Sığortaçı aşağıdakı hallarda hazırkı Qaydaların 32.12-ci bəndində göstərilən müddəti uzatmaq hüququna malikdir:
a) sığorta hadisəsinin baş verməsindən irəli gələn zərərin miqdarının müəyyən olunması məqsədilə əlavə ekspertiza təyin olunduqda. Əlavə ekspertizanın aparılmasına dair xərclər onun təyin edilməsinə təşəbbüs göstərən tərəfin üzərinə düşür;
b) baş vermiş hadisə ilə bağlı sənədlərin təqdim olunması, başvermə şəraitlərinin aydınlaşdırılması, habelə zərərin miqdarının təyin olunması cinayət, yaxud mülki, ya da inzibati hüquqpozma barədə iş üzrə icraatın nəticələrindən asılıdır.
Hazırkı bənddə qeyd olunan vəziyyətlərlə əlaqədar olaraq, bu Qaydaların 32.12-ci bəndində göstərilən qərarın qəbul edilməsi müddəti əlavə ekspertizanın , yaxud da cinayət və ya mülki iş üzrə icraatın

nəticələri Sığortaçıya təqdim olunduğu və məhkəmənin qərarı qüvvəyə mindiyi tarixdən etibarən hesablanır.
32.14.. Əgər sığorta müqaviləsində digər müddət göstərilməzsə, sığorta ödənişi Sığortaçı və Faydalanan şəxs, yaxud Sığortalı tərəfindən sığorta aktı imzalandıqdan sonra 15 gün ərzində həyata keçirilir. Sığorta ödənişi nağd qaydada Sığortaçının kassasına ödənilməklə, ya da pul vəsaitləri Faydalanan şəxsin və ya Sığortalının hesablaşma hesabına nağdsız köçürmə yolu ilə həyata keçirilir.
Nağd köçürmə zamanı sığorta ödənişinin həyata keçirildiyi gün Faydalanan şəxs və ya Sığortalının pul vəsaitlərini Sığortaçının kassasından aldığı, nağdsız hesablaşma zamanı isə, pul vəsaitləri Sığortaçının hesablaşma hesabından silindiyi gün hesab olunur.

**Maddə 33. Sığorta ödənişini verməkdən imtina olunması**

33.1. Sığortaçı aşağıdakı hallarda sığorta ödənişini verməkdən imtina etmək hüququna malikdir, yəni əgər Sığortalı:
a) Sığortaçını (onun nümayəndəsini) sığorta hadisəsinin baş verməsi ilə əlaqədar olaraq, hazırkı Qaydaların 15.2.3-cü bəndi ilə nəzərdə tutulan müddətdə və formada xəbərdar etməmişsə və Sığortaçının sığorta hadisəsinin baş verməsi ilə bağlı vaxtında xəbər tutduğu sübuta yetirilməyəcəksə, ya da Sığortaçının bu barədə malik olduğu məlumatlar onun sığorta ödənişini aparmaq vəzifəsinə təsir edə bilməzsə;
b) sığorta hadisəsinin baş verməsi nəticəsində dəymiş zərərin azaldılması üzrə onun üçün zəruri və mümkün hesab olunan tədbirlər görməmişsə;
c) Sığortalının vəzifələrindən irəli gələrək, sığorta hadisəsinin başvermə şəraitini və zərərin miqdarını xarakterizə edən sənədlər təqdim edilməmişdirsə (hazırkı Qaydaların 30-cu maddəsi);
ç) təlimatlar və sığorta müqaviləsinə əlavələr, habelə Sığortaçının digər yazılı göstərişləri də daxil olmaqla, hazırkı Qaydaların, sığorta müqaviləsinin şərtlərini yerinə yetirməmişsə və ya pozmuşsa. Vəzifələrin yerinə yetirilməsi faktını sübut etmə öhdəliyi Sığortalının üzərinə düşür.
33.2. Sığorta ödənişindən imtina barədə qərar imtinanın səbəbləri əsaslandırılmaqla yazılı şəkildə Sığortalıya təqdim olunur.

**Maddə 34. Sığortalının və Sığortaçının hüquqları və vəzifələri**

34.1. Sığortalının hüquqları aşağıdakılardır:
34.1.1. Qanunvericiliyə uyğun olaraq, Sığortaçı haqqında məlumat əldə etmək;
34.1.2. sığorta hadisəsinin başvermə şəraitinin araşdırılmasında iştirak etmək;
34.1.3. Sığortaçının sığorta ödənişini verməkdən imtina etməsi ilə bağlı qərarından şikayət etmək;
34.1.4. Qanunvericiliyə və hazırkı Qaydalara müvafiq şəkildə sığorta müqaviləsini vaxtından əvvəl pozmaq.
34.2. Sığortalının vəzifələri aşağıdakılardır:
34.2.1. sığorta haqqını (haqlarını) vaxtında və tam həcmdə ödəmək;
34.2.2. sığorta müqaviləsi bağlanan zaman ona məlum olan, sığorta riskinin qiymətləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edən bütün vəziyyətlər, habelə sığorta obyekti ilə əlaqədar bağlanmış bütün sığorta müqavilələri barədə Sığortaçıya məlumat vermək;
34.2.3. Sığortalıya sığorta hadisəsinin baş verməsinə gətirib çıxara bilən hadisə barədə məlumat çatan kimi, bu zaman sığorta hadisəsi barədə hökmən əlavə yazılı xəbərdarlıq təqdim etməklə onun başvermə şəraitləri barədə bütün məlum informasiyanı göstərərək, istənilən mümkün üsulla Sığortaçıya həmin hadisənin baş verməsi barədə dərhal məlumat vermək.
Sığorta hadisəsi barədə yazılı xəbərdarlıq Sığortalının zərərin vurulması halı (tələbin, yaxud iddianın irəli sürülməsi) barədə məlumat əldə etdiyi tarixdən etibarən 5 (beş) gün ərzində poçt, teleqraf, yaxud faks rabitəsi vasitəsilə Sığortaçının ünvanına göndərilməli, ya da Sığortaçının nümayəndəsinə təqdim olunmalıdır;
34.2.4. sığorta hadisəsi baş verdiyi zaman mümkün zərərlərin qarşısının alınması və (yaxud)

azaldılması üzrə məqbul və mümkün tədbirlər görmək. Sığortalı bu cür tədbirləri görərkən Sığortaçı tərəfindən ona müvafiq göstərişlər verildiyi təqdirdə həmin göstərişlərə əməl etməyə borcludur;
34.2.5. Sığortaçını üçüncü şəxslərə zərər vurulmasına səbəb olmuş hadisənin araşdırılması prosesi barədə müntəzəm surətdə məlumatlandırmaq;
34.2.6. Sığortaçının ilkin yazılı razılığı olmadan Faydalanan şəxs tərəfindən irəli sürülən tələblərin tənzimlənməsi ilə ağlı öz üzərinə bu və ya digər öhdəliklər götürməmək;
34.2.7. Sığortaçını vurulmuş zərərin kompensasiya olunması barədə irəli sürülən bütün tələb və iddialar, Faydalanan şəxs tərəfindən məhkəməyə (arbitraj məhkəməsinə) iddia ərizəsinin verilməsi barədə dərhal məlumatlandırmaq;
34.2.8. Sığortaçını baş vermiş sığorta hadisəsi nəticəsində Faydalanan şəxsə dəymiş ziyanın ödənilməsi üzrə məhkəmə qərarının çıxarılması ilə bağlı olaraq, beşgünlük müddət ərzində məlumat vermək (sənədin əslini sonra göndərmək şərtilə telefon, faks, elektron poçt vasitəsilə);
34.2.9. sığorta ödənişi barədə yazılı ərizəni, sığorta hadisəsinin baş verməsini və dəymiş zərərin miqdarını təsdiq edən bütün zəruri sənədləri (hazırkı Qaydaların 30-cu maddəsi) Sığortaçıya təqdim etmək;
34.2.10. sığorta hadisəsi baş verdiyi zaman Sığortalının digər sığorta şirkətləri ilə daşıyıcının/ekspeditorun mülki məsuliyyətinin sığortalanması üzrə bağladığı bütün qüvvədə olan müqavilələr barədə Sığortaçıya yazılı məlumat vermək;
34.2.11. sığorta müqaviləsinə əlavə olunan təlimatlara, habelə Sığortaçının digər yazılı göstərişlərinə əməl etmək.
34.3. Sığortaçının aşağıdakı hüquqları var:
34.3.1. sığortaya qəbul olunan risk barədə Sığortalı tərəfindən təqdim edilmiş məlumatı yoxlamaq;
34.3.2. əgər müqavilə bağlandıqdan sonra Sığortalının Sığortaçıya sığorta hadisəsinin baş verməsi ehtimalının və mümkün zərərlərin ölçüsünün müəyyən olunması üçün mühüm əhəmiyyət kəsb etmiş ona məlum olan şəraitlər barədə bilə-bilə yalan məlumatlar verdiyi müəyyən olunduğu təqdirdə bağlanmış sığorta müqaviləsinin qanunvericiliklə müəyyən olunmuş qaydada qüvvədən düşmüş hesab olunduğunu tələb etmək. İstənilən halda, Sığortaçı tərəfindən sığorta ərizəsində və sığorta müqaviləsində aydın surətdə nəzərdə tutulmuş şəraitlər mühüm əhəmiyyət kəsb edir.
34.3.3. sığorta müqaviləsinə xitam verilməsini və Sığortalı tərəfindən sığorta haqlarının, o cümlədən əlavə sığorta haqqının ödənilməsi üzrə öhdəliklərin icra olunmaması, yaxud da lazımınca icra olunmaması hallarında ona xitam verilməsi səbəbindən yaranan zərərlərin ödənilməsini tələb etmək;
34.3.4. sığorta hadisəsinin səbəblərini və başvermə şəraitlərini müstəqil surətdə aydınlaşdırmaq;
34.3.5. korlanmış əmlakın müayinəsində iştirak etmək;
34.3.6. vurulmuş ziyanın ödənilməsi ilə bağlı məsələlərdə Sığortalı adından və onun tapşırığı ilə çıxış etmək;
34.3.7. Sığortalının tapşırığı ilə öz üzərinə Sığortalı adından məhkəmə və arbitraj orqanlarında işlərin aparılması, habelə Faydalanan şəxs tərəfindən irəli sürülən iddia tələbləri ilə bağlı bəyanatlar vermək öhdəliyini götürür (lakin Sığortaçının bu hərəkətləri onun tərəfindən özünün sığorta ödənişini həyata keçirmək öhdəliyinin tanınması kimi qiymətləndirilə bilməz);
34.3.8. qanunla müəyyən olunmuş qaydada Sığortalıya qarşı irəli sürülən tələblərin ölçüsünü təkzib etmək;
34.3.9. olmadığı təqdirdə sığorta hadisəsinin baş verməsi faktının müəyyən olunmasını və vurulmuş zərərin miqdarının təyin edilməsini qeyri-mümkün edən konkret şəraitlər nəzərə alınmaqla, kommersiya sirri olan məlumatlar da daxil olmaqla Sığortalıdan əlavə məlumat və informasiya tələb etmək;
34.3.10. Sığortalı tərəfindən hazırkı sığorta qaydaları və sığorta müqaviləsinin şərtləri pozulduğu hallarda sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi;
34.3.11. Qanunvericiliklə nəzərdə tutulan digər hərəkətlərin yerinə yetirilməsi.
34.4. Sığortaçının vəzifələri aşağıdakılardır:
34.4.1. sığorta müqaviləsi bağlanan zaman Sığortalını hazırkı Qaydalarla və avtomobil daşıyıcısının/ekspeditorun mülki məsuliyyət sığortası müqaviləsinə sürücülər üçün əlavə olunan

Təlimatla tanış etmək;
34.4.2. sığorta hadisəsinin sığorta hadisəsi kimi təsdiqlənməsinə dair qərarın qəbul edilməsi və sığorta ödənişinin həyata keçirilməsi üçün təqdim olunması zəruri hesab edilən sənədlərin siyahısını Faydalanan şəxsə çatdırmaq;
34.4.3. hazırkı Qaydaların 32.12-ci bəndi ilə müəyyən olunmuş müddətdə sığorta hadisəsinin sığorta hadisəsi kimi təsdiqlənməsi, yaxud təsdiqlənməməsi barədə qərar qəbul etmək.
34.4.4. sığorta hadisəsi üzrə zərər faktı, səbəbləri və miqdarı barədə məsələlərin tənzimlənməsi üçün bütün zəruri sənədlər Sığortalı və Faydalanan şəxs tərəfindən təqdim olunduqdan sonra sığorta aktı tərtib etmək və hazırkı Qaydaların 32.14-cü bəndi ilə müəyyən olunmuş müddətdə sığorta ödənişini həyata keçirmək;
34.4.5. Sığortalının əmlak vəziyyəti, sığorta obyektinin vəziyyəti, şərtləri və xüsusiyyətləri barədə məlumatları, habelə qanunvericilik aktları ilə ziddiyyət təşkil etmədiyi təqdirdə, sığorta müqaviləsinin bağlanması ilə əlaqədar olaraq bildirilən digər məxfi məlumatı açıqlamamaq.
34.5. Sığortalı və Sığortaçı biri-biri ilə münasibətdə həm də hazırkı Qaydaların və qanunvericiliyinin müddəalarından irəli gələn digər hüquq və vəzifələrə malik ola bilərlər.

**Maddə 35. Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti**

Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 36. Mübahisələrin həlli qaydası**

Bu Qaydalar əsasında bağlanmış sığorta müqaviləsindən irəli gələn mübahisələr Sığortaçı ilə Sığortalı arasında danışıqlar yolu ilə, tərəflər razılığa gələ bilmədikdə isə qanunvericiliklə müəyyən edilmiş qaydada həll edilir.

**Maddə 37. AVTOMOBİL DAŞIYICISININ MƏSULİYYƏTİNİN SIĞORTALANMASININ ƏLAVƏ ŞƏRTLƏRİ**

38.1. Daşıyıcı qismində çıxış edən Sığortalının mülki məsuliyyət riskinin sığortalanması daşıma fəaliyyətinin həyata keçirilməsinə lisenziya olduğu şərtlər daxilində həyata keçirilən daşımalara şamil edilir (əgər lisenziyalaşdırma tələbi mövcud qanunvericiliklə müəyyən olunmuşsa).
38.2. Barələrində sığorta müqaviləsinin bağlandığı nəqliyyat vasitələrinin tərkibinin kəmiyyət və (yaxud) keyfiyyət etibarilə dəyişdirilməsi məqsədilə Sığortalı nəqliyyat vasitələrinin yeni siyahısını əlavə etməklə Sığortaçıya yazılı şəkildə məlumat verir. Göstərilən dəyişikliklər Əlavə razılaşma rəsmiləşdirmək yolu ilə sığorta müqaviləsi Tərəflərinin razılığı əsasında həyata keçirilir və bu zaman Sığortaçı sığorta haqqının yenidən hesablanmasını aparmaq hüququna malikdir.

**Maddə 39. EKSPEDİTORUN MƏSULİYYƏTİNİN SIĞORTALANMASININ ƏLAVƏ ŞƏRTLƏRİ**

39.1. Ekspeditor qismində çıxış edən Sığortalının fəaliyyətinə yükün daşınması ilə bağlı xidmətlərin təşkil olunması və (yaxud) yerinə yetirilməsi daxildir. Sığortalının, barəsində sığorta həyata keçirilən fəaliyyəti sığorta müqaviləsində (sığorta şəhadətnaməsində) göstərilir. Bu zaman mal-nəqliyyat qaiməsində ekspeditor qismində Sığortalı, daşıyıcı qismində isə Sığortalının daşıyıcı-kontragenti göstərilməlidir.
Sığorta nəqliyyatla göndərmə müqaviləsi üzrə cəlb olunmuş, daşıma fəaliyyətini həyata keçirməyə dair lisenziyası olan Sığortalı və (yaxud) daşıyıcılar tərəfindən həyata keçirilən daşımalara şamil olunur

(əgər lisenziyalaşdırma tələbi qanunvericiliklə müəyyən olunmuşsa). Yuxarıda göstərilən lisenziya dayandırıldığı, geri götürüldüyü və ya qüvvədə olma müddəti başa çatdığı zaman ekspeditor qismində çıxış edən Sığortalının məsuliyyət sığortası lisenziyanın dayandırıldığı, geri götürüldüyü və ya qüvvədə olma müddəti başa çatdığı andan həyata keçirilən daşımalara şamil edilmir.
39.2. Hazırkı Qaydalara, sığorta müqaviləsinə əsasən, Sığortalının aşağıdakılar vasitəsilə həyata keçirilən nəqliyyat-ekspeditor ilə bağlı mülki məsuliyyət riskinin sığortalanması nəzərdə tutula bilər:
a) əlavə nəqliyyat-ekspeditor xidmətlərinin göstərilməsi yolu ilə;
b) öz, yaxud icarəyə verilmiş nəqliyyat vasitələri ilə (hazırkı Qaydaların 3.3.-cü bəndinə müvafiq olaraq);
c) Sığortalının daşıyıcılarını-kontragentlərini cəlb etməklə. "Sığortalı tərəfindən barələrində sığortanın həyata keçirildiyi daşıyıcılar qismində cəlb olunan nəqliyyat təşkilatlarının siyahısı" Əlavəsi tərtib olunduğu zaman Sığortalı daşıyıcının adını, hüquqi ünvanını, əlaqə telefonunu və faksını və sığorta şirkətinin adını göstərməklə (əgər qəbul oluna biləndirsə) daşıyıcıda qüvvədə olan mülki məsuliyyət sığortası barədə hər hansı bir müqavilənin olması ilə bağlı məlumatları göstərməlidir.
ç) subekspeditorları cəlb etməklə. "Sığortalı tərəfindən barələrində sığortanın həyata keçirildiyi daşıyıcılar qismində cəlb olunan nəqliyyat təşkilatlarının siyahısı" Əlavəsi tərtib olunduğu zaman, Sığortalı subekspeditorun adını, hüquqi ünvanını, əlaqə telefonunu və faksını və sığorta şirkətinin adını göstərməklə (əgər qəbul oluna biləndirsə) subekspeditorda qüvvədə olan mülki məsuliyyət sığortası barədə hər hansı bir müqavilənin olması ilə bağlı məlumatları göstərməlidir.
d) konkret, o cümlədən nümunəvi nəqliyyat-ekspeditor müqavilələrinin şərtləri əsasında. Bu halda Sığortalı sığorta haqqında ərizəyə nəqliyyat- ekspeditor müqavilələrinin (öz sifarişçiləri ilə) və daşıma müqavilələrinin (daşıyıcılarla) möhürlə təsdiqlənmiş nümunəvi formalarını əlavə etməlidir.
Ekspeditor fəaliyyətinin sığortalanmasının həyata keçirilməsi zamanı istifadə olunan yuxarıda göstərilən müqavilə formaları Sığortaçı tərəfindən imzalanır. Sığortalı və Sığortaçı tərəfindən imzalanmış nümunəvi nəqliyyat-ekspeditor müqaviləsi formaları sığorta müqaviləsinin ayrılmaz hissəsi olurlar.
39.3. Hazırkı Qaydaların 39.2-ci bəndinin "c" və "d" yarımbəndlərinə uyğun olaraq, Sığortalının öhdəlikləri üçüncü şəxslər tərəfindən icra olunduğu zaman Sığortalı cəlb olunmuş üçüncü şəxsləri "Sürücülər üçün avtomobil daşıyıcısının/ekspeditorun mülki məsuliyyət sığortası müqaviləsinə dair Təlimat"la tanış etməlidir.
39.4. Barələrində sığortanın həyata keçirildiyi (hazırkı Qaydaların 39.2-ci bəndinin "b", "c" və "d" yarımbəndləri) nəqliyyat vasitələrinin tərkibində kəmiyyət və (yaxud) keyfiyyət etibarilə, habelə cəlb olunan daşıyıcıların və subekspeditorların siyahısında dəyişikliklər edilməsi məqsədilə, Sığortalı nəqliyyat vasitələrinin, daşıyıcıların və subekspeditorların yeni siyahısını əlavə etməklə Sığortaçıya yazılı şəkildə məlumat verir. Göstərilən dəyişikliklər Əlavə razılaşma tərtib etmək yolu ilə Sığorta müqaviləsi üzrə Tərəflərin razılığı əsasında həyata keçirilir və bu zaman Sığortaçı sığorta haqqının yenidən hesablanmasını aparmaq hüququna malikdir.

**Maddə 40. Subroqasiya hüququ**

40.1. Subroqasiya hüququ, sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş Sığortaçının istifadə etmək hüququdur.

40.2.Faydalanan şəxsin zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüquq sığorta ödənişini vermiş Sığortaçıya subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi məbləğində keçir.

40.3.Sığortalı sığorta ödənişini aldıqda subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlərlə Sığortaçını təmin etməlidir.

40.4.Sığortalı zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri Sığortaçıya verməkdən imtina etdikdə Sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir.

40.5. Sığortaçı subroqasiya hüqüqundan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış digər sığortaçıya, həmçinin qanunvericiliyə əsasən dəyən zərərə görə Sığortalı qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər. Sığortalının hər hansı məhkəmədənkənar razılışma və ya məhkəmə qərarı əsasında zərərə görə məsuliyyət daşıyan şəxslərdən aldığı təzminat məbləğləri ilk növbədə Sığortaçının Sığorta müqaviləsi üzrə həyata keçirdiyi sığorta ödənişlərinin əvəzinin ödənilməsinə xərclənəcək.